UOT: 338.433; 338.43

Cəlal Nəsimi oğlu SƏFƏROV
Aqrar Tədqiqatlar Mərkəzinin dissertantı
E-mail: Celalseferov.cs@gmail.com
https://doi.org/10.30546/4.71.731.03.2026.59

AQRAR SAHƏDƏ İSTEHSAL RESURSLARINA FERMER ƏLYETƏRLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ DÖVLƏT DƏSTƏYİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Xülasə

Tədqiqatın məqsədi. Tədqiqatın əsas məqsədi Azərbaycanda aqrar sahədə fermerlərin istehsal resurslarına (torpaq, texnika, gübrə, toxum, damazlıq heyvan, maliyyə və s.) çıxış imkanlarının qiymətləndirilməsi, dövlət tərəfindən tətbiq edilən subsidiya, lizinq, vergi və kredit mexanizmlərinin səmərəliliyinin təhlili və bu mexanizmlərin daha hədəfli və nəticəyönlü formada təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsindən ibarətdir.

İşin metodologiyası. Tədqiqatın metodoloji əsasını normativ-hüquqi sənədlərin, rəsmi statistika məlumatlarının və beynəlxalq təcrübənin müqayisəli təhlili təşkil edir. Araşdırmada analitik-statistik təhlil, müqayisəli qiymətləndirmə, sistemli yanaşma və mərhələli inkişaf konsepsiyası tətbiq edilmişdir. Dövlət dəstəyinin aqrar sahədə məhsuldarlığa və resurs əlçatanlığına təsiri 2015–2024-cü illər üzrə dinamik aspektdə qiymətləndirilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti. Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, fermerlərin istehsal resurslarına çıxış imkanlarının genişləndirilməsi istiqamətində dövlət siyasətinin daha effektiv qurulmasına elmi əsaslandırılmış təkliflər təqdim edilir. Bu yanaşma kənd təsərrüfatında məhsuldarlığın artırılmasına, istehsalın intensivləşdirilməsinə, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə və aqrar sahənin rəqabətqabiliyyətli inkişafına töhfə verə bilər.

Tədqiqatın nəticələri. Aparılan təhlillər göstərir ki, son illərdə tətbiq olunan subsidiya, lizinq və vergi güzəştləri mexanizmləri fermerlərin istehsal resurslarına çıxışını yaxşılaşdırmış və məhsuldarlığın artmasına müsbət təsir göstərmişdir. Bununla yanaşı, kredit resurslarının yüksək dəyəri və bəzi stimullaşdırıcı meyarların yerli şəraitə tam uyğunlaşdırılmaması mexanizmlərin səmərəliliyini məhdudlaşdırır. Dövlət dəstəyinin ünvanlılıq, şəffaflıq və nəticəyönlülük prinsipləri əsasında təkmilləşdirilməsi zəruri hesab edilir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi. Tədqiqatda aqrar sahədə dövlət dəstəyinin mərhələli inkişaf modeli (2015–2024-cü illər üzrə) sistemləşdirilmiş, beynəlxalq təcrübə ilə müqayisəli təhlil aparılmış və istehsal resurslarına çıxışın struktur və institusional mexanizmləri kompleks şəkildə qiymətləndirilmişdir. Dövlət dəstəyinin maliyyə transferi xarakterindən institusional-modernləşmə modelinə transformasiyası elmi əsaslarla ümumiləşdirilmişdir.

Açar sözlər: aqrar sahə, fermer təsərrüfatı, dövlət dəstəyi, istehsal, resurs, əlyetərlik, iqtisadi inkişaf.

Giriş

Məlum olduğu kimi, ölkədə həyata keçirilmiş torpaq islahatları nəticəsində aqrar sahədə üç əsas təsərrüfat forması formalaşmışdır: kənd təsərrüfatı müəssisələri, fərdi sahibkar təsərrüfatları və ailə-kəndli (ev) təsərrüfatları. Mövcud statistik göstəricilər sübut edir ki, hazırda kənd təsərrüfatı məhsullarının əsas istehsalçıları məhz ailə-kəndli və fərdi sahibkar təsərrüfatlarıdır. 2024-cü ilin rəsmi statistik məlumatlarına əsasən, ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullarının 11,5%-i kənd təsərrüfatı müəssisələrinin, 88,5%-i isə fərdi sahibkarlar və ailə-kəndli (ev) təsərrüfatlarının payına düşür. Bu struktur bölgüsü kənd yerlərində fəaliyyət göstərən kiçik təsərrüfat formalarının aqrar istehsalda həlledici mövqeyə malik olduğunu göstərir.

E.Ə. Quliyev haqlı olaraq qeyd edir ki, "Aqrar islahatların ilk illərindən başlayaraq kənd təsərrüfatı məhsullarının aşağı qiymətləri, artan istehsal xərcləri, istehlakçının ərzaq məhsulları üçün

ödədiyi məbləğin dəyər zəncirinin subyektləri arasında qeyri-bərabər bölgüsü kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən kiçik və orta təsərrüfatların və eləcə də kənd təsərrüfatı müəssisələrinin orta və ya yüksək gəlir əldə etmə imkanlarına mənfi təsir göstərən açıq tendensiyalardır” [4, s.125]. Bu yanaşma aqrar istehsalın struktur problemlərinin sistemli xarakter daşıdığını və gəlir formalaşmasının institusional mexanizmlərlə sıx bağlı olduğunu göstərir.

Aparılan tədqiqatların nəticələri göstərir ki, ölkədə fəaliyyət göstərən xırda, kiçik və orta istehsalçıların əksəriyyətində (iri şirkət və holdinqlər istisna olmaqla) müasir texnika və texnologiyalara çıxış imkanları məhduddur. Maliyyə resurslarının çatışmazlığı məhsulun maya dəyərinə uyğun, keyfiyyətli və rəqabətqabiliyyətli istehsalın genişləndirilməsini məhdudlaşdırır. Bu isə ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından tələb olunan istehsal həcmlərinin artırılmasını çətinləşdirir və innovativ istehsal vasitələri ilə təminatın gücləndirilməsini zəruri edir.

Eyni zamanda, aqrar sahənin mövcud inkişaf səviyyəsinin yetərli olmaması, emal sənayesinin zəif investisiya cəlbediciliyi və qlobal bazarda kənd təsərrüfatı məhsullarına artan tələbat fonunda aqrobiznes fəaliyyətində risklərin mövcudluğu dövlət tərəfindən həyata keçirilən aqrar siyasətdə sistemli və kompleks yanaşmanın tətbiqini obyektiv zərurətə çevirir.

1. Materiallar və metodlar

Tədqiqatın məqsədi aqrar sahənin inkişafı və fermerlərin istehsal resurslarına dövlət dəstəyinin təmin edilməsi məsələlərini təhlil etməkdir. Bu məqsədlə ilk mərhələdə mövzu ilə bağlı mövcud ədəbiyyatın geniş təhlili aparılmışdır. Təhlil olunan materiallar arasında dövlətin aqrar sahəyə verdiyi dəstəklə bağlı normativ-hüquqi sənədlər, yerli və beynəlxalq elmi məqalələr, dövlət statistika məlumatları və digər etibarlı mənbələr yer alır. Mövzu ilə bağlı elmi ədəbiyyatın geniş təhlili aparılmışdır.

Bu mərhələdə kənd təsərrüfatı sahəsində dövlət dəstəyinin strukturu, onun iqtisadi təsirləri və bu dəstəyin fermerlərin fəaliyyətinə necə təsir etdiyi barədə mövcud nəzəriyyələr və praktiki təcrübələr öyrənilmişdir. Ədəbiyyat təhlili həm də dövlət siyasətinin aqrar sahədəki inkişafı necə dəstəklədiyini göstərən beynəlxalq və yerli təcrübələri əhatə edir.

Müxtəlif ölkələrdə tətbiq olunan dövlət dəstəyi modelləri müqayisə edilmişdir. Bu metodla dövlətin aqrar sahəyə verdiyi dəstəklərin regional və qlobal təcrübələrə əsaslanaraq təhlili aparılmış, hər bir modelin üstünlükləri və zəif tərəfləri müəyyən edilmişdir. Tədqiqatın əsas hissələrindən biri olaraq dövlət dəstəyinin aqrar sahədə yaradılan təsirlərini ölçmək üçün statistik təhlil metodu istifadə olunmuşdur.

Azərbaycan Dövlət Statistika Komitəsinin və digər etibarlı mənbələrin məlumatları əsasında kənd təsərrüfatının inkişafına və fermerlərin resurslara sahib olmalarına təsir edən əsas iqtisadi göstəricilər toplanmış və təhlil edilmişdir. Statistik məlumatlar əsasında dövlət dəstəyinin təsiri olan sahələr müəyyənləşdirilmişdir. Bu metodlar tədqiqatın məqsədinə uyğun olaraq dövlət dəstəyinin fermerlərə təsirini qiymətləndirməyə və bu dəstəyin təkmilləşdirilməsi üçün praktiki təkliflər verməyə imkan yaratmışdır.

2. Təhlil və Müzakirə

Fermerlərə büdcə hesabına göstərilən dövlət dəstəyinin şəffaflığının təmin edilməsi inkişaf etmiş ölkələrdə olduğu kimi, ölkəmizdə də aqrar siyasətin son illərdə rəqəmsallaşmanın tətbiqinin kənd təsərrüfatının müxtəlif sahələrinə yönəlməsini zəruri etmişdir. Bura daxildir: dəqiq kənd təsərrüfatı, rəqəmsal maliyyə xidmətləri, məlumatların uçotu və idarəetmə sisteminin inkişafı, informasiya texnologiyaları dəstəyinin genişləndirilməsi və s. Burada xüsusi ilə elektron kənd təsərrüfatının tətbiqini qeyd etmək olar.

Hazırda fermerlərin istehsal resurslarına çıxışının asanlaşdırılması üçün verilən subsidiyaların fermerlərin elektron sistem üzərindən qeydiyyatdan keçərək almaları təmin edilmişdir. Fermerlərə verilən kartlara köçürülən vəsaitlərin 25%-nin nağdlaşdırılması və 75%-nin isə dövriyyə vəsaitlərinin alınmasına və sığorta ödənişi üçün sərf edilməsi ilə dövlət dəstəyinin birbaşa kənd təsərrüfatı istehsalına yönləndirilməsi təmin edilmişdir.

Keçən əsrin 90-cı illərində dəyişən iqtisadi münasibətlər nəticəsində yeni avadanlıqların alınması çətinləşmiş və aqrar islahatların ilk illərindən kənd təsərrüfatında mövcud olan avadanlıqların

rəqabətqabiliyyətli olmaması və onların aşınaraq istismar müddətini başa vurması kənd təsərrüfatı məhsulları istehsalında və emalında bir çox problemlər yaratmışdır. Məhz bu amillər, kənd təsərrüfatında avadanlıqların yenilənməsi, sahədən məhsuldarlığı artırmaq üçün innovativ texnologiyaların tətbiqi və genişləndirilməsi, aqrotexniki xidmətlərin göstərilməsi, rəqabətin və keyfiyyətin yüksəldilməsi kimi problemlərin həlli kənd təsərrüfatına dövlət dəstəyi mexanizminin hazırlanaraq həyata keçirilməsini zəruri etmişdir.

Sürətli iqtisadi inkişaf, rəqabət mühitinin getdikcə daha da sərtləşməsi göstərilən dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsini şərtləndirmişdir. Məhz bu baxımdan, “Kənd təsərrüfatı istehsal vasitələri bazarında rəqabətyönlü fəaliyyətin təmin edilməsi, texnikanın və damazlıq heyvanların lizinq vasitəsilə güzəştli satışı mexanizminin təkmilləşdirilməsi, özəl aqrotexniki xidmətlərin genişləndirilməsi, dövlət-özəl tərəfdaşlığı prinsipi tətbiq edilməklə güzəştlərə yönəldilən büdcə vəsaitindən səmərəli istifadə edilməsi” Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" 19 dekabr 2018-ci il tarixli 413№-li Fərmanında öz əksini tapmışdır [1].


Məlum olduğu kimi, kənd təsərrüfatı istehsalında istifadə olunan və əsas istehsal fonduna daxil edilən resurslardan məhsul almaq da xeyli vaxt tələb edir. Məsələn, bir südçülük fermasında inəklərin yetişdirilməsi üçün 3 il, meyvə bağından məhsul əldə edilməsi üçün 4-5 il, çay məhsulunun əldə edilməsi üçün 8-10 il vaxt tələb olunur. Təbii ki, burada 1-5 hektar aralığında torpaq sahələrinə sahib olan ailə-kəndli təsərrüfatlarının bu qədər müddəti gözləməyə və məhsul əldə edilənə qədər xərcləri qarşılamağa imkanları yoxdur və maliyyə vəsaitlərinin çox məhdud olması vəziyyəti daha da çətinləşdirir. Digər tərəfdən, kənd təsərrüfatında innovativ bağların salınması və məhsuldar heyvanlardan ibarət heyvandarlıq təsərrüfatlarının yaranması istiqamətində müəyyən işlər görülməsinə baxmayaraq əldə edilən əsas istehsal resurslarının yerli şəraitə uyğunlaşdırılmasında qarşıya çıxan çətinliklər onlardan istifadənin iqtisadi səmərəliliyini aşağı salır.Araşdırmalar göstərir ki, kənd təsərrüfatında məhsuldarlığın artırılmasına təsir edən amilləri üç qrupa ayırmaq olar. Bunlar tənzimlənməyən, qismən tənzimlənən və tam tənzimlənən amillərdir.

Tənzimlənən amillərə məhsul istehsalı üçün istifadə olunan toxum və tinglərin keyfiyyəti, yerli şəraitə uyğunluğu və cinsi, alaq otları ilə yoluxma səviyyəsi, bitkilərin xəstəlikləri və zərərvericiləri, qida elementlərinin mövcudluğu, yeni texniki vasitələrlə təminat səviyyəsi, torpağın aerasiyası (torpağın sıxlığı və havalanması) və aqreqat tərkibi daxildir.

Bu amillər vasitəsilə geniş ərazilərdə istehsalı tənzimləmək olar, eyni zamanda, tənzimlənməyən və qismən tənzimlənən amillərin bitkilərin böyüməsinə, inkişafına, məhsuldarlığına və keyfiyyətinə mənfi təsirini minimuma endirmək olar.

Məlum olduğu kimi fermerlərin ən çox çətinlik çəkdiyi məsələlərdən biri əkin sahələrinin vaxtlı-vaxtında mineral gübrələrlə təmin edilməsidir. Burada yaranan çətinliklərdən biri qiymətlərin baha olması və maliyyə imkanlarının aşağı olmasıdır. Digər səbəb, verilən subsidiyaların şəxsi ehtiyaclara yönəldilməsiylə bağlıdır. Subsidiyaların verilməsində edilən dəyişikliklər və qeyd etdiyimiz kimi vəsaitin nağdlaşdırılmasına qoyulan məhdudiyyətlər əkin sahələrinin münbitliyinin qorunmasına və nəticədə istehsalın artmasına şərait yaratmışdır.

Statistik məlumatların təhlili göstərir ki, kənd təsərrüfatı əkinlərinin islahatlar dövründə və 2000-ci illərdə, 2010-2015-ci illərdə mineral gübrələrlə təmin edilməsi həddən artıq aşağı səviyyədə olub. Təbii ki, bu da torpaqların münbitliyinin aşağı düşməsinə, məhsuldarlığın və sonda istehsalın azalmasına ciddi təsir etmişdir. Torpaqların təbii münbitliyinin qorunması və iqtisadi münbitliyinin artırılması aqrar siyasətin əsas prinsipi olmalıdır. Məhz bu baxımdan, aparılan islahatlar, istehsal resurslarına fermer əlyetərliyinin təmin edilməsi istiqamətində dövlət dəstəyinin göstərilməsi 2015-ci ildən sonrakı illərdə əkin sahələrinin mineral gübrələrlə təmin edilməsini yaxşılaşdırmışdır. Bu isə öz növbəsində məhsuldarlığın və məhsul istehsalının artmasına səbəb olmuşdur. Onu da qeyd edək ki, əkin sahələrinin qidalı maddələrlə təmin edilməsi məhsuldarlığın artmasına təsir edən əsas amillərdən biridir. Azərbaycanda əsas məhsullar üzrə məhsuldarlığın dinamikası qrafik 1 -də verilmişdir.



Qrafik 1. Azərbaycanda əsas əkin sahələrinin məhsuldarlıq dinamikası.

Mənbə: *https://www.stat.gov.az/source/agriculture/*

Qrafikdə təsvir olunan statistik məlumatlardan göründüyü kimi məhsuldarlıq göstəriciləri əsasən 2016-cı ildən sonra artan trendlə inkişaf etmişdir. Əvvəldə qeyd etdiyimiz kimi bu, tək əkinlərin qidalı maddələrlə təmin edilməsi ilə bağlı deyil, burada, əkinlərdə cins toxumlardan və yeni texnologiyalardan istifadə səviyyəsinin yüksəldilməsi də önəmli rol oynayır.

Dünya iqtisadiyyatında baş verən proseslər, məlum müharibə səbəbindən yaranmış enerji böhranı və bu böhranla üzləşən ən böyük sənaye istehsalına malik olan inkişaf etmiş Avropa ölkələrinin olması avadanlıqların qiymətlərinin kəskin artmasına gətirib çıxarır. Artıq təsərrüfatlarda əvvəllər mövcud olmuş və bu gün də vergi hesabatlarında öz əksini tapan amortizasiya xərcləri artan qiymətlər fonunda öz əhəmiyyətini daha da itirmişdir. Odur ki, fermerlərin istehsal resurslarına əlyetərliyinin təmin edilməsi üçün istehsal resurslarının idxalına güzəştli gömrük rüsumları və vergi güzəştləri tətbiq edilir.

“Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 22 noyabr 2013-cü il tarixli 824 nömrəli Qanununa əsasən Azərbaycan Respublikasının Vergi Məcəlləsinə edilən dəyişikliklərə görə, 2014-cü il yanvarın 1-dən 5 il müddətinə torpaq vergisi istisna olmaqla, digər vergiləri ödəməkdən azaddırlar. Bu vergilərə gəlirlərə tətbiq edilən gəlir vergisi; kənd təsərrüfatı məhsullarının satışı üzrə dövriyyədən əlavə dəyər vergisi və hüquqi və fiziki şəxslər fəaliyyət prosesində istifadə olunan əmlaka görə əmlak vergisi aiddir [3].

Eyni zamanda, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 31 yanvar tarixli 11 və 12 nömrəli qərarlarına əsasən kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində istifadə edilən və lizinq müqaviləsinin obyekti olan əksər maşın və texniki vasitələr idxal edilərkən idxal rüsumundan və əlavə dəyər vergisindən azaddırlar [3].

Hazırda Aqrar Kredit və İnkişaf Agentliyi vəsaiti hesabına texnikaların alınmasına dövlət dəstəyi göstərilir. Texnika və digər avadanlıqların alınmasına sahibkar tərəfindən texnikanın dəyərinin 20%-i həcmində ilkin ödəniş, dövlət tərəfindən 40 %-i həcmində subsidiya (güzəşt), qalan məbləğ isə Bank tərəfindən faizsiz kreditləşməklə kənd təsərrüfatı texnikası əldə etmək mümkündür. Damazlıq heyvan alışı üçün isə heyvanın dəyərinin 25%-i həcmində ilkin ödəniş, dövlət tərəfindən 60% subsidiya (güzəşt), qalan məbləğ isə illik 7%-lə Bank tərəfindən kreditləşdirilir [2].

Araşdırmalardan göründüyü kimi kənd təsərrüfatı məhsullarının istehsalı prosesində tələb olunan istehsal resurslarına əlyetərliyi asanlaşdırmaq üçün dövlət tərəfindən mühüm addımlar atılmaqdadır. Bu isə öz növbəsində sahədən məhsuldarlığın və gəlirlərin artmasına imkan verir.

Azərbaycanda aqrar sahədə dövlət dəstəyinin illər üzrə təhlili, fermerlərin istehsal resurslarına əlyetərliyinin artırılması və təsərrüfatların inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2015-ci ildən 2023-cü ilə qədər olan dövrdə aqrar

sahəyə yönəldilən dövlət dəstəyində müxtəlif dəyişikliklər müşahidə olunmuşdur.

3. 2015-2024-cü illərdə aqrar sahədə dövlət dəstəyinin mərhələli inkişafı və beynəlxalq müqayisəli təhlili

3.1. Azərbaycanda 2015-2024-cü illər üzrə dövlət dəstəyinin mərhələli inkişaf xüsusiyyətləri

2015-ci il – baza mərhələsi - bu dövrdə aqrar sahəyə dövlət dəstəyi əsasən subsidiya və güzəştli kredit mexanizmləri vasitəsilə həyata keçirilmiş, diqqət ənənəvi istehsal sahələrinin qorunmasına və məhsul istehsalının stimullaşdırılmasına yönəldilmişdir.

2016-2017-ci illər – maliyyə genişlənməsi mərhələsi - aqrar sahəyə ayrılan büdcə vəsaitləri artırılmış, kredit və subsidiya mexanizmləri genişləndirilmiş, institusional dəstək alətləri gücləndirilmişdir.

2018-2019-cu illər – struktur və texnoloji yenilənmə mərhələsi - bu mərhələdə investisiya yönümlü yanaşma güclənmiş, yeni istehsal texnologiyalarının tətbiqi, fermerlərin maarifləndirilməsi və istehsalın modernləşdirilməsi istiqamətində tədbirlər həyata keçirilmişdir.

2020-2021-ci illər – anti-böhran və dayanıqlılıq mərhələsi - COVID-19 pandemiyasının təsiri fonunda aqrar sahəyə əlavə maliyyə dəstəyi göstərilmiş, ərzaq təhlükəsizliyinin təmin edilməsi prioritet istiqamət kimi müəyyənləşdirilmişdir.

2022-2024-cü illər – institusional və idarəetmə modernləşməsi mərhələsi - Dövlət dəstəyi mexanizmləri daha çevik və ünvanlı formaya keçirilmiş, istehsal resurslarına çıxışın asanlaşdırılması, yeni təsərrüfat formalarının təşviqi və müasir idarəetmə yanaşmalarının tətbiqi gücləndirilmişdir.

Bu mərhələli inkişaf göstərir ki, dövlət dəstəyi mexanizmləri təkcə maliyyə transferi xarakteri daşımamış, eyni zamanda struktur və institusional transformasiya funksiyasını yerinə yetirmişdir.

3.2. Dövlət dəstəyinin zəruriliyi və beynəlxalq praktikada tətbiqi

Kənd təsərrüfatı milli iqtisadiyyatın digər sahələri ilə rentabellik baxımından rəqabət qabiliyyətinə malik olmadığından, demək olar ki, bütün ölkələrdə xüsusi dövlət dəstəyi mexanizmləri formalaşdırılmışdır. İnkişaf etmiş ölkələrdə dövlət dəstəyi yalnız istehsalın artırılmasına deyil, həm də bazar tənzimlənməsinə və innovativ transformasiyaya yönəldilir.

Türkiyə təcrübəsi - 2006-cı ildə qəbul edilmiş qanuna əsasən, dövlət kənd təsərrüfatına ÜDM-in 1%-ni ayırmalıdır. Lakin 2017-ci ildə faktiki göstərici ÜDM-in 0,41%-ni təşkil etmiş və bu, qanunla nəzərdə tutulan səviyyədən xeyli aşağı olmuşdur [10]. Türkiyə Kənd Təsərrüfatı və Meşə Təsərrüfatı Nazirliyi tərəfindən toxum, gübrə, dizel yanacağı və torpaq analizi üzrə subsidiyalar genişləndirilmişdir. Bu fakt göstərir ki, qanunvericilik öhdəlikləri ilə faktiki icra arasında fərq dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinə birbaşa təsir edir.

ÜTT kontekstində dövlət dəstəyi - araşdırmalar göstərir ki, ÜTT-yə üzv ölkələr dövlət dəstəyini götürdükləri öhdəliklərə uyğun şəkildə həyata keçirirlər. Qadağan olunmuş subsidiyalar məhdudlaşdırılır, daha çox “yaşıl qutu” alətlərinə üstünlük verilir.

Rusiya Federasiyası təcrübəsi - Rusiyada fermerlərin texnika təminatı, kooperativlərin dəstəklənməsi, damazlıq heyvanların alınması, süd kvotaları və ailə təsərrüfatlarının subsidiyalaşdırılması istiqamətində kompleks mexanizm tətbiq olunur. Fermer təsərrüfatının genişləndirilməsi xərclərinin 60%-ə qədərinin subsidiya olunması istehsalın stimullaşdırılmasına xidmət edir. Ekspert hesablamalarına görə, kənd təsərrüfatında dayanıqlı inkişaf üçün büdcə xərclərinin 10–15%-nin bu sahəyə yönəldilməsi məqsədəuyğundur [7].

Avropa İttifaqı təcrübəsi - Aİ-də 11 milyondan çox fermer fəaliyyət göstərir və onların əksəriyyəti kiçik ailə təsərrüfatlarıdır. Emal və pərakəndə sektorunda yüksək konsentrasiya fermerlərin bazar gücünü zəiflədir və dövlət müdaxiləsini zəruri edir.

Çin təcrübəsi - 2004-cü ildən etibarən kənd təsərrüfatı texnikasının alınmasına subsidiya siyasəti həyata keçirilir. 2021-ci ilin sonunadək 258,2 milyard yuan həcmində investisiya yönəldilmiş və təxminən 50 milyon texnika dəsti alınmışdır [8]. Subsidiyaların optimallaşdırılması və mexanikləşmənin sürətləndirilməsi üzrə normativ sənədlər qəbul edilmişdir. Eyni zamanda Çin höku-

məti mərhələli şəkildə birbaşa subsidiyaların azaldılması və bazar mexanizmlərinin gücləndirilməsi istiqamətində islahatlar aparır.

Qazaxıstan təcrübəsi - 2015-ci ilə qədər ixrac subsidiyaları və idxalı əvəzetmə alətləri geniş tətbiq edilmişdir. İxrac subsidiyalarının payı ümumi subsidiya həcminin təxminən 13%-ni təşkil etmişdir [9]. ÜTT-yə üzv olduqdan sonra qadağan olunmuş subsidiyalar dayandırılmış, diqqət rəqəmsallaşdırma və faiz subsidiyaları kimi alətlərə yönəldilmişdir.

Cədvəl 1.

Aqrar sahədə dövlət dəstəyi mexanizmlərinin müqayisəli təhlili (2015–2024)

İl/Mərhələ	Azərbaycan (2015–2024)	Əsas tədbirlər və mexanizmlər	Beynəlxalq təcrübə	Nəticə
2015	Baza mərhələsi	Subsidiya və güzəştli kreditlər; ənənəvi istehsal sahələrinin qorunması	Qazaxıstan: ixrac subsidiyaları və idxalı əvəzetmə	Əkin sahələrinin mineral gübrələrlə təminatı aşağı səviyyədə idi; məhsuldarlıq artımı məhdud
2016–2017	Maliyyə genişlənməsi	Büdcə vəsaitlərinin artırılması, kredit və subsidiya mexanizmlərinin genişləndirilməsi	Türkiyə: subsidiya payı ÜDM-in 0,41%-i; toxum, gübrə və dizel subsidiyaları	Fermerlərin resurslara çıxışı yaxşılaşdı, istehsal və məhsuldarlıq artdı
2018–2019	Struktur və texnoloji yenilənmə	Yeni texnologiyaların tətbiqi, istehsalın modernləşdirilməsi, maarifləndirmə	Rusiya: texnika təminatı, damazlıq heyvanlar, kooperativlərin dəstəklənməsi	Fermerlərin innovativ texnologiyalara çıxışı artdı, məhsul keyfiyyəti yüksəldi
2020–2021	Anti-böhran və dayanıqlılıq	COVID-19 pandemiyası fonunda əlavə maliyyə dəstəyi, ərzaq təhlükəsizliyi prioriteti	Çin: texnika subsidiya siyasəti, bazar mexanizmlərinin gücləndirilməsi	Fermerlərin dayanıqlığı qorundu, istehsalın fasiləsizliyi təmin edildi
2022–2024	İnstitusional və idarəetmə modernləşməsi	Ünvanlı dəstək, yeni təsərrüfat formalarının təşviqi, rəqəmsal idarəetmə	Avropa İttifaqı: kiçik ailə təsərrüfatlarına dəstək,emal/pərakəndə sektor konsentrasiyası	Dövlət dəstəyi daha hədəfli və şəffaf oldu, məhsuldarlıq və resurs əlçatanlığı artdı

Mənbə: Cədvəl müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 1 göstərir ki, 2015–2024-cü illərdə Azərbaycan aqrar sahədə dövlət dəstəyini mərhələli şəkildə genişləndirmişdir. 2015-ci ildə baza mərhələsində ənənəvi subsidiya və güzəştli kreditlər tətbiq edilmiş, məhsuldarlıq məhdud səviyyədə qalmışdır. 2016–2017-ci illərdə büdcə vəsaitlərinin artırılması və kredit/subsidiya mexanizmlərinin genişləndirilməsi ilə fermerlərin resurslara çıxışı yaxşılaşmış, istehsal artmışdır. 2018–2019-cu illərdə texnoloji yenilənmə və maarifləndirmə nəticəsində innovativ texnologiyalara çıxış və məhsul keyfiyyəti yüksəlmişdir. 2020–2021-ci illərdə COVID-19 pandemiyası fonunda əlavə maliyyə dəstəyi və ərzaq təhlükəsizliyi tədbirləri fermerlərin dayanıqlığını qorumuşdur. 2022–2024-cü illərdə institusional və idarəetmə modernləşməsi, ünvanlı dəstək və rəqəmsal idarəetmə mexanizmləri ilə dövlət dəstəyi daha hədəfli və şəffaf olmuş, məhsuldarlıq və resurs əlçatanlığı artmışdır.

Beynəlxalq təcrübə ilə müqayisədə, Azərbaycan mexanizmləri Qazaxıstan, Çin və Aİ nümunələrinə paralel olaraq optimallaşdırılmış, bazar və texnoloji alətlərə fokuslanmışdır.

4. **Azərbaycanda istehsal resurslarına çıxışın genişləndirilməsi mexanizmləri**

Azərbaycanda istehsal resurslarına çıxışın artırılması məqsədilə gömrük və vergi güzəştləri

tətbiq edilir. Nazirlər Kabinetinin 2005-ci il tarixli qərarlarına əsasən kənd təsərrüfatı texnikası idxal rüsumu və ƏDV-dən azad edilmişdir. 2011-ci il qərarına uyğun olaraq safqanlı heyvanlar, strateji toxum növləri və gübrələrin idxalı da güzəştli rejimə daxil edilmişdir.

2014-cü ildən kənd təsərrüfatı istehsalçıları torpaq vergisi istisna olmaqla digər əsas vergilərdən azad edilmişdir. Bundan əlavə, damazlıq heyvanların lizinq yolu ilə 50% güzəştlə satışı mexanizmi tətbiq olunur. Bu alətlər fermerlərin istehsal xərclərini azaltmaqla investisiya imkanlarını genişləndirir və resurs əlçatanlığını artırır [12].

Aparılan təhlillər göstərir ki, 2015–2024-cü illərdə aqrar sahədə dövlət dəstəyi mexanizmləri maliyyə yönümlü transfer modelindən struktur və institusional modernləşmə modelinə doğru transformasiya etmişdir. Beynəlxalq təcrübə isə göstərir ki, səmərəli dövlət dəstəyi yalnız vəsaitlərin artırılması ilə deyil, onların hədəfli, şəffaf və məhsuldarlığa yönəlmiş şəkildə tətbiqi ilə təmin olunur.

Yekun nəticə

Aparılmış elmi təhlil göstərir ki, aqrar sahədə istehsal resurslarına fermer əlyetərliyinin təmin edilməsi dövlətin sistemli və uzunmüddətli siyasəti olmadan mümkün deyil. Azərbaycanda son illərdə tətbiq olunan subsidiya, lizinq, vergi və rəqəmsal dəstək mexanizmləri kənd təsərrüfatında məhsuldarlığın və istehsal həcminin artmasına müsbət təsir göstərmişdir. Xüsusilə mineral gübrələrlə təminatın yaxşılaşdırılması, texnika və damazlıq heyvan alışı üzrə güzəştli mexanizmlərin tətbiqi istehsalın intensivləşməsinə şərait yaratmışdır.

Eyni zamanda, beynəlxalq təcrübənin təhlili göstərir ki, dövlət dəstəyi siyasətinin səmərəliliyi onun iqtisadi inkişaf səviyyəsi, institusional mühit və beynəlxalq öhdəliklərlə uyğunlaşdırılmasından asılıdır. İnkişaf etmiş ölkələrdə dəstək mexanizmləri innovativ texnologiyaların tətbiqinə, rəqəmsallaşmaya və resurs qənaətinə yönəldildiyi halda, bəzi keçid iqtisadiyyatlı ölkələrdə daha çox fiskal və kompensasiya xarakteri daşıyır.

Beləliklə, aqrar sahədə dövlət dəstəyinin təkmilləşdirilməsi üçün subsidiyaların vaxtında verilməsi, istehsalın nəticələrinə əsaslanan diferensial mexanizmlərin tətbiqi, heyvandarlıqda yerli cins xüsusiyyətlərinin nəzərə alınması, maliyyə institutları ilə əməkdaşlığın genişləndirilməsi və rəqəmsal monitorinq sistemlərinin gücləndirilməsi prioritet istiqamətlər kimi çıxış edir. Bu yanaşma fermerlərin istehsal resurslarına dayanıqlı çıxışını təmin etməklə yanaşı, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə və aqrar sahənin rəqabətqabiliyyətli inkişafına xidmət edəcəkdir.

Nəticə

Tədqiqatın nəticələri göstərir ki, aqrar sahədə dövlət dəstəyi yalnız fiskal alət kimi deyil, strateji inkişaf mexanizmi kimi qiymətləndirilməlidir. Dövlətin məqsədi istehsalçıların iqtisadi dayanıqlığını artırmaq, kənd yerlərində sosial sabitliyi qorumaq və milli ərzaq təhlükəsizliyini təmin etməkdir. Bu baxımdan, dövlət dəstəyinin strukturunun innovativ, ünvanlı və səmərəlilik meyarlarına əsaslanan formada yenidən qurulması aqrar siyasətin əsas prioriteti olmalıdır.

Təklif olunan yanaşmaların həyata keçirilməsi fermerlərin istehsal resurslarına çıxışını genişləndirəcək, subsidiyaların iqtisadi qaytarımını artıracaq və dövlət büdcəsinə düşən yükün optimallaşdırılmasına imkan verəcəkdir. Nəticə etibarilə, təkmilləşdirilmiş dövlət dəstəyi mexanizmi aqrar sahənin uzunmüddətli və davamlı inkişafının təmin olunmasına xidmət edəcəkdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" 19 dekabr 2018-ci il tarixli 413№-li Fərmanı. https://e-qanun.az/framework/41022 (15.01.2023)
2. Aqrar Kredit və İnkişaf Agentliyinin məlumatları (tps://www.accessbank.az/az/ht) (23.01.2023)
3. Kənd Təsərrüfatı Nazirliyi (https://www.agro.gov.az/az) (23.01.2023)
4. Quliyev E.Ə., Kənd təsərrüfatının və kəndin inkişafının mövcud vəziyyəti və inkişaf

perspektivləri, (səh 123-131), “Kooperasiya” elmi-praktiki jurnalı №1(72)-2024, 217 s.
5. Экономика сельского хозяйства / Под ред. В.В. Кузнецова.-Ростов н/Д, 2005. -346 с.
6. Novak, N.P. “World experience of state support of organic production.” Efficient economy, no.6, 2016, (www.economy.nayka. com.ua/ op=1&z=5034. Accessed 19 Mar.2018.) (10.02.2023)
7. Paptsov A G 2017 The role of the state in the agricultural sector of developed countries AIC: Economics, Management 4 pp 83-87
8. www.zcggs.moa.gov.cn/zczc/202206/t20220615_6402470.htm (11.02.2023)
9. Заурбекова Т.С-Основные тенденции развития мер государственной поддержки сельского хозяйства в Казахстане в условиях членства в ЕАЭС и ВТО (https://cyberleninka.ru/article/n/osnovnye-tendentsii-razvitiya) (15.02.2023)
10. https://dergipark.org.tr/tr/download/article-file/764630 (17.02.2023)
11. https://www.stat.gov.az/source/agriculture/
12. https://www.agro.gov.az/az/doevlet-desteyi/guezestli-sertlerle-damazliq-heyvanlarin-lizinqi/damazliq-heyvanlarin-guezestle-satisi

Джалал Насими оглы Сафаров
диссертант Центра Аграрных Исследований
E-mail: Celalseferov.cs@gmail.com

Совершенствование государственной поддержки в обеспечении доступа фермеров к производственным ресурсам в аграрном секторе

Резюме

Цель исследования. Основной целью исследования является оценка возможностей доступа фермеров в аграрном секторе Азербайджана к производственным ресурсам (земля, техника, удобрения, семена, племенной скот, финансовые ресурсы и др.), анализ эффективности применяемых государством механизмов субсидирования, лизинга, налоговых льгот и кредитования, а также определение направлений их дальнейшего совершенствования на более адресной и результатоориентированной основе.

Методология исследования. Методологическую основу исследования составляет сравнительный анализ нормативно-правовых актов, официальных статистических данных и международного опыта. В работе применены методы аналитико-статистического анализа, сравнительной оценки, системного подхода и концепция поэтапного развития. Влияние государственной поддержки на продуктивность и доступность ресурсов в аграрном секторе оценено в динамике за 2015–2024 годы.

Практическая значимость исследования. Практическая значимость работы заключается в разработке научно обоснованных предложений по повышению эффективности государственной политики в направлении расширения доступа фермеров к производственным ресурсам. Предлагаемый подход способствует росту производительности сельского хозяйства, интенсификации производства, укреплению продовольственной безопасности и повышению конкурентоспособности аграрного сектора.

Результаты исследования. Проведённый анализ показывает, что механизмы субсидирования, лизинга и налоговых льгот, реализованные в последние годы, способствовали улучшению доступа фермеров к производственным ресурсам и оказали положительное влияние на рост производительности. Вместе с тем высокая стоимость кредитных ресурсов и неполная адаптация отдельных стимулирующих критериев к местным условиям ограничивают эффективность данных механизмов. Обоснована необходимость дальнейшего совершенствования государственной поддержки на принципах адресности, прозрачности и результативности.

Оригинальность и научная новизна исследования. В работе систематизирована поэтапная модель развития государственной поддержки в аграрном секторе за 2015–2024 годы, проведён сравнительный анализ международного опыта и комплексно оценены структурные и институциональные механизмы обеспечения доступа к производственным ресурсам. Научно обобщена трансформация государственной поддержки от модели финансовых трансфертов к институционально-модернизационной модели.

Ключевые слова: аграрный сектор, фермерское хозяйство, государственная поддержка, производство, ресурсы, доступность, экономическое развитие.

Jalal Nasimi Safarov
PhD Candidate, Center for Agrarian Studies
E-mail: Celalseferov.cs@gmail.com

Improving state support to ensure farmers' access to production resources in the agricultural sector

Summary

Purpose of the research. The primary objective of this study is to assess farmers' access to production resources in the agricultural sector of Azerbaijan (including land, machinery, fertilizers, seeds, breeding livestock, financial resources, etc.), to analyze the effectiveness of state-implemented subsidy, leasing, tax incentive, and credit mechanisms, and to identify directions for their further improvement on a more targeted and results-oriented basis.

Methodology of the research. The methodological framework of the study is based on **a** comparative analysis of legal and regulatory documents, official statistical data, and international experience. The research employs analytical-statistical methods, comparative assessment, a systemic approach, and a phased development concept. The impact of state support on productivity and resource accessibility in the agricultural sector was evaluated dynamically for the period 2015–2024.

Practical significance of the research. The practical significance of the study lies in the development of scientifically grounded recommendations aimed at enhancing the effectiveness of state policy in expanding farmers' access to production resources. This approach contributes to increased agricultural productivity, production intensification, strengthening food security, and improving the competitiveness of the agricultural sector.

Research findings. The analysis indicates that subsidy, leasing, and tax incentive mechanisms implemented in recent years have improved farmers' access to production resources and positively affected productivity growth. However, the high cost of credit resources and the incomplete adaptation of certain incentive criteria to local conditions limit the effectiveness of these mechanisms. Further refinement of state support based on the principles of targeting, transparency, and results orientation is considered necessary.

Originality and scientific novelty of the research. The study systematizes the phased development model of state support in the agricultural sector for 2015–2024, conducts a comparative analysis of international experience, and comprehensively evaluates the structural and institutional mechanisms of ensuring access to production resources. The transformation of state support from a financial transfer model to an institutional modernization model is scientifically substantiated and generalized.

Key words: agricultural sector, farm enterprise, state support, production, resources, accessibility, economic development.